1_Layout 1 29.01.2018 15:44 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 02 (518)

31 yanvar 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## AZƏRBAYCAN DAHA BİR BEYNƏLXALQ REYTİNQ CƏDVƏLİNDƏ ÖNƏ ÇIXDI

***Məlum olduğu kimi, hər il Davos İqtisadi Forumu ərəfəsində dünyanın bu nüfuzlu və əsas iqtisadi qurumunun müxtəlif indekslər üzrə hesabatları açıqlanır. Bu hesabatlar ayrı-ayrı ölkələrdəki iqtisadi durumun qiymətləndirilməsi baxımından çox əhəmiyyətlidir. Çünki məhz həmin hesabatlar dünyanın nəhəng investorlarının hansı ölkələrə və hansı sahələrə sərmayə yatırmağını şərtləndirir və təşviq edir. Bu baxımdan Azərbaycanın son illər, bir qayda olaraq, Dünya İqtisadi Forumunun və digər beynəlxalq qurumların müxtəlif reytinq cədvəllərində yüksək yerlər tutması sıradan iqtisadi uğur sayılmamalıdır.***



İndi budur, xəbər verildiyi kimi, Azərbaycan 2018-ci il üzrə Dünya İqtisadi Forumunun ənənəvi inklüziv indeksində inkişaf edən ölkələr arasında üçüncü yerə layiq görülmüşdür. Forumun saytında bildirilir ki, ümumdaxili məhsulun alternativi kimi işlənib hazırlanmış inklüziv inkişaf indeksi insanların öz ölkələrində iqtisadi tərəqqini qiymətləndirdikləri meyarları daha dəqiq əks etdirir. Saytdakı məlumatdan o da məlum olur ki, builki hesabatda ölkəmiz yalnız Litva və Macarıstandan geri qalaraq 7 mümkün baldan 4,69-nu toplamışdır. Söz düşmüşkən onu da nəzərə çatdıraq ki, sözügedən indeks üzrə inkişaf etmiş ölkələrin siyahısına Norveç, İslandiya və Lüksemburq başçılıq edirlər.

Əvvəlcədən qeyd edək ki, Azərbaycanın bu indeks üzrə də yüksək yerdə qərarlaşması təsadüfi deyil. Artıq bütün nüfuzlu beynəlxalq təşkilatlara və reytinq agentliklərinə bəllidir ki, Azərbaycan əksər sahələr üzrə yüksək inkişaf tempinə malik ölkə kimi keyfiyyət etibarilə yeni iqtisadi islahatlar mərhələsinə qədəm qoymuşdur. Bu islahatlar ölkədə həyata keçirilən iqtisadi siyasətin əhəmiyyətini daha da artırmağa, əhalinin sosial rifahını yaxşılaşdırmağa və sosial infrastrukturu müasirləşdirməyə hədəflənmişdir. Ümumiyyətlə, son dövrlər, xüsusən son 10 ildə reallaşdırılan iqtisadi siyasət nəticəsində ölkəmizdə qeyri-neft sektoru sürətlə inkişaf etməyə başlamış, əhalinin sosial müdafiəsi güclənmiş, infrastruktur modernləşmiş, dövlətin balansında olan aktivlər artmış və ümumdaxili məhsulun həcmindən çox strateji valyuta ehtiyatları yaranmışdır.

Konkret rəqəmlərə müraciət edək: Azərbaycanda 2004-2015-ci illər ərzində real olaraq orta hesabla 10,6 faiz iqtisadi artım müşahidə edilmişdir. Ümumdaxili məhsulun (ÜDM) nominal həcmi isə 7,6 dəfə artmışdır. Həmin dövrdə adambaşına düşən ÜDM-in həcmində 6,5 dəfə artım qeydə alınmışdır ki, bu da Azərbaycanı dünya ölkələri sırasında 134-cü yerdən 79-cu yerə yüksəltmişdir. Qeyd edilən dövrdə əhalinin sosial rifahı da xeyli yaxşılaşmışdır. Ölkədə yoxsulluğun səviyyəsinin 2004-cü ildəki 40,2 faizdən 4,9-a enməsi bunun real göstəricisidir.

Belə sürətli yüksəlişin ilkin səbəbi isə təbii ki, Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılmasıdır. Məhz bunun nəticəsində əldə olunan maliyyə imkanları sürətli inkişafı hədəfləyən daxili iqtisadi planları və qlobal regional layihələri maliyyələşdirməyə imkan vermişdir. 2004-2015-ci illərdə məhz neft gəlirlərindən istifadə etməklə reallaşdırılan iqtisadi artım modeli "aktiv şəkildə əsas kapitala investisiya qoyuluşu" xarakterli olmaqla dövrün məqsədlərinə çatmağa zəmin yaratmışdır.

Hətta neftin dünya bazarlarında 2014-cü ildən başlayaraq ucuzlaşmasına və bu ucuzlaşmanın Azərbaycanın da tədiyə balansına, maliyyə-bank sektoruna, ən əsası, milli valyutamızın məzənnəsinə təsir etməsinə baxmayaraq, yeni şəraitə uyğun həyata keçirilən iqtisadi islahatlar və bu zaman qeyri-neft sektoruna, həmin sahənin aparıcı qüvvəsi olan sahibkarlığın daha sürətli inkişafına stavka edilməsi ölkəni qarşıya qoyulmuş hədəflərdən çəkindirmədi. Qısa zamanda hazırlanıb reallaşdırılmasına start verilən Strateji Yol Xəritəsi nəticələrini göstərdi: Azərbaycan 2017-ci ili ÜDM istehsalında artımla yola saldı. Xüsusən, qeyri-neft sektorunda məhsul istehsalının artımı kifayət qədər yüksək (2,7 faiz) oldu. Bu sektorun ÜDM-də xüsusi çəkisi isə 62,8 faizə çatdı.

Təbii ki, bütün bunlar dünyanın tanınan reytinq qurumlarının və Dünya İqtisadi Forumu kimi nüfuzlu təşkilatlarının diqqətindən kənarda qala bilməzdi. Hələ 2009-cu ildə Dünya Bankının "Douing Business" hesabatında Azərbaycanın "Lider islahatçı dövlət" elan olunmasını xatırlayaq. Yaxud Dünya İqtisadi Forumunun "2016-2017-ci illər üzrə qlobal rəqabətlilik hesabatı"nda ölkəmizin 2006-cı illə müqayisədə 27 pillə irəliləyərək 138 dövlət arasında 37-ci pilləyə yüksəlməsini yada salaq. Həmin hesabata əsasən, Azərbaycan makroiqtisadi mühitin keyfiyyət göstəricisinə görə 39-cu, əmək bazarının səmərəliliyi üzrə 26-cı, milli gəlirin ÜDM-ə nisbəti üzrə 32-ci, infrastrukturun keyfiyyətinə görə 55-ci olmuşdur.

Onu da qeyd edək ki, Dünya İqtisadi Forumunun açıqladığı son "Qlobal Rəqabət Qabiliyyəti 2017-2018" hesabatında Azərbaycan daha 2 pillə irəliləyərək 35-ci, MDB ölkələri sırasında isə yenə də ilk yerdə qərarlaşmışdır. Məlumat üçün bildirək ki, həmin göstərici üzrə MDB-də liderliyimiz 2009-cu ildən davam edir. Ümumiyyətlə, ölkəmizin Dünya İqtisadi Forumunun hazırladığı hesabatlarda mövqeyi xeyli yaxşılaşmışdır. Təkcə "Qlobal Rəqabət Qabiliyyəti" indeksində Azərbaycan 34 pillə irəliləmişdir. Bu indeks üzrə Azərbaycan hətta "G-20"yə daxil olan bəzi ölkələri geridə qoymuşdur. Həmin indeks üzrə son hesabatda İndoneziya 36-cı, Rusiya 38-ci, Hindistan 40-cı, İtaliya 43-cü, Meksika 51-ci, Türkiyə 53-cü, Cənubi Afrika Respublikası 61-ci, Braziliya 80-ci, Argentina 92-ci, yəni Azərbaycandan sonrakı yerlərdə qərarlaşmışlar.

Azərbaycanın rəqabət qabiliyyətinin artması sözügedən hesabatın bir sıra indikatorlarında daha aydın görünür. Aydın görünür ki, ölkəmiz biznesin mükəmməlləşdirilməsi üzrə 20 pillə irəliləyərək 40-cı, əmtəə bazarının səmərəliliyi üzrə 19 pillə önə keçərək 31-ci, infrastruktura görə 4 pillə yüksələrək 51-ci, əmək bazarının səmərəliliyi üzrə 9 pillə irəliləyərək 17-ci, səhiyyə və ibtidai tədris üzrə 1 pillə önə keçərək 74-cü, maliyyə bazarının inkişafı üzrə 18 pillə yüksələrək 79-cu, innovasiya potensialına görə 11 pillə vəziyyətini yaxşılaşdıraraq 33-cü, institutların keyfiyyətinə görə 15 pillə irəli çıxaraq 33-cü, ali təhsil və təlim üzrə 10 pillə qalxaraq 68-ci olmuşdur. Bunlar isə o deməkdir ki, Azərbaycan həmin hesabatda 12 kateqoriyadan 9-da mövqeyini yaxşılaşdıra bilmişdir.

Azərbaycan həm də 190 ölkənin biznes mühitini qiymətləndirən Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının dərc etdiyi "Douing Business 2018" hesabatında 57-ci yerə layiq görülmüşdür ki, bu mövqe də əvvəlkindən 8 pillə yüksəkdir. Ölkəmiz bu hesabatda da xeyli çox - 6 göstərici üzrə göstəricilərini yaxşılaşdırmışdır. Məsələn, Azərbaycan həmin hesabatda kiçik investorların maraqlarının qorunmasına görə 10-cu, əmlakın qeydiyyatı üzrə 21-ci, vergilərin ödənişinə görə 35-ci, müqavilələrin icrasının təmin edilməsi üzrə 38-ci olmuşdur ki, bu yerlər də əvvəlkilərdən xeyli yüksəkdir. Həmin hesabatda Azərbaycan həmçinin Avropa, eləcə də Mərkəzi Asiyada dörd və daha çox islahat aparan 3 ölkədən biri elan olunmuşdur.

Göründüyü kimi, ölkəmizdə həyata keçirilən davamlı iqtisadi islahatlar və onların nəticələri dünyanın nüfuzlu təşkilatları və reytinq agentlikləri tərəfindən hazırlanan hesabatlarda davamlı olaraq öz real qiymətini alır. Bu baxımdan Dünya İqtisadi Forumunun inklüziv inkişaf indeksində inkişaf edən ölkələr arasında üçüncü sırada qərar tutmağımızı da layiqli qiymət kimi dəyərləndirmək olar.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



Daxili İşlər Nazirliyində 2017-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan nazir general-polkovnik Ramil Usubov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquq-mühafizə siyasəti sayəsində daxili işlər orqanlarında da fəaliyyətin təkmilləşdirilməsi, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb, asayişin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması və digər sahələrdə qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası təmin edilib. Qeyd olunub ki, ölkəmiz cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ötən il də MDB və Avropa məkanında öncül mövqeyini saxlayıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 271-dən 264-ə qədər azalıb. Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə qlobal rəqabətlilik" hesabatına əsasən, "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə respublikamızın 21 pillə irəliləyərək 137 ölkə arasında 54-cü yerdə qərarlaşması da diqqətəlayiq fakt kimi vurğulanıb.

Hesabat məruzəsi ilə çıxış edən Daxili İşlər Naziri R.Usubov deyib ki, 2017-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26.113 cinayət qeydə alınıb. Onların 93,1 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub. Bu cinayətlərin 86,3 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 13,7 faizini ağır və xüsusilə ağır növlər təşkil edib.

Profilaktik iş sahəsində davam etdirilən tədbirlərlə ötən il cinayətlərin ümumi sayı 2016-cı illə müqayisədə 2,7 faiz, o cümlədən ağır və xüsusilə ağır cinayətlər 9, qəsdən adam öldürmələr 9,5, quldurluqlar 23,6, soyğunçuluqlar 16,6, dələduzluqlar 11,8, hədə-qorxu ilə tələb etmələr 10,5, xuliqanlıqlar 15,1, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 12,5, yol-nəqliyyat hadisələri 8,6, qəzalarda ölənlərin sayı 1,2, xəsarət alanların sayı 14,2 faiz azalıb.

Peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılması 3,6, ağır və xüsusilə ağır cinayətlərin açılması 2,8, quldurluqların açılması 8,6, soyğunçuluqların açılması 5,5, hədə-qorxu ilə tələb etmələrin açılması 0,3, oğurluqların açılması 6,4, dələduzluqların açılması 2 faiz yaxşılaşıb. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlər üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri də davam etdirilərək, 418 cinayətin açılması təmin edilib.

Məruzəçi hüquqpozmaların qarşısının vaxtında alınmasında informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyətini də qeyd edib. Nazirliyin "102" xidmətinə daxil olan məlumatlar üzrə operativ tədbirlər və əməliyyat planlarının vaxtında tətbiqi nəticəsində 1726 cinayətin "isti izlər"lə açıldığı, 10.607 hüquqazidd əməlin qarşısının alındığı vurğulanıb.

"Təhlükəsiz şəhər" sisteminin texniki imkanları ilə 624 cinayət açılıb, piyadaların vurulması faktları da daxil olmaqla, 18.132 yol-nəqliyyat hadisəsi aşkarlanıb, axtarışda olan 84 avtomobil saxlanılıb.

Hüquqazidd əməllərdən zərər çəkənlərin qanuni mənafelərinin müdafiəsində və ədalətin bərpasında mühüm əhəmiyyət kəsb edən cinayətə görə məsuliyyətin labüdlüyünün təmin edilməsi üzrə fəaliyyət də nəzarətdə saxlanılıb, məhkəmə, istintaq və təhqiqat orqanlarından yayınan 3415 nəfər və ya müqayisə edilən dövrə nisbətdə 13 faiz çox təqsirləndirilən şəxs tutulub.

İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 76 nəfərin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 39 şəxsin yeri müəyyən olunub. Bütövlükdə, axtarış işinin göstəricisi 71,4 faiz təşkil edib.

Daxili İşlər Naziri qeyd edib ki, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədyönlü şəkildə həyata keçirilib və hesabat ilində 2698 cinayət törətmiş 1028 cinayətkar qrup zərərsizləşdirilib.

Transmilli mütəşəkkil cinayətlərdən olan narkotraffikə qarşı həyata keçirilən tədbirlərlə qanunsuz dövriyyədən 944,5 kiloqram narkotik vasitə çıxarılıb, 78 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz olaraq, kultivasiya edilən və yabanı halda bitən 175 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

İnsan alverinin və bu cinayətin qurbanlarının müəyyən edilməsi üzrə Milli Fəaliyyət Planı əsasında görülən işlər də ardıcıl olub. Nəticədə 142 insan alveri və 6 məcburi əmək cinayəti müəyyən edilib, 17 nəfərdən ibarət 8 cinayətkar qrup zərərsizləşdirilib. Qurbanların müdafiəsi, hüquqlarının bərpası və sosial reabilitasiyası üzrə fəaliyyət çərçivəsində 71 şəxsin cəmiyyətə reinteqrasiyası təmin edilib.

Ötən il respublikanın hüquq-mühafizə orqanları tərəfindən 32 min 500 cinayət işinin istintaqı aparılıb ki, onlardan 84 faizi daxili işlər orqanları müstəntiqlərinin icraatında olub. İstintaqı tamamlanmış 9.085 cinayət işi ittiham aktı ilə məhkəmələrə göndərilib. Vətəndaşlara dəymiş maddi ziyanın ödətdirilməsi 2016-cı illə müqayisədə 14,5 faiz yaxşılaşaraq 84,9 faiz təşkil edib.

Məruzədə artıq beşinci ildir ki, yol-nəqliyyat hadisələrinin dinamikasında, qəzalarda ölən və xəsarət alanların sayında nəzərəçarpan azalmanın müşahidə olunduğu diqqətə çatdırılıb. Bildirilib ki, yol hərəkəti qaydaları əleyhinə olan hüquqpozmaların aşkarlanması hesabat dövründə 17,6 faiz artaraq 3.365.417 inzibati xəta təşkil edib. Bütövlükdə, müxtəlif inzibati xətalara görə respublika üzrə 2016-cı illə müqayisədə 17,2 faiz çox və ya 3.481.458 protokol tərtib edilib.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətinin sosial müdafiəsinin və xidmət şəraitinin yaxşılaşdırılması ilə bağlı 2017-ci ildə də mühüm tədbirlər həyata keçirilib. Sistemli şəkildə aparılan müvafiq işin nəticəsi olaraq, komandirlərin və idarəetmə orqanlarının fəaliyyətinin effektivliyi, hərbi hissələrin döyüş qabiliyyəti, əsgər və zabitlərin vətənpərvərlik ruhu və mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə yüksəlib.

Ümumən, ötən il ölkədə keçirilmiş 657, o cümlədən 367 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə Daxili Qoşunların, Əlahiddə Çevik Polis Alayının və ərazi polis orqanlarının şəxsi heyəti tərəfindən asayişin və təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirildiyi də diqqətə çatdırılıb.

General-polkovnik Ramil Usubov qeyd edib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrası daim ciddi nəzarətdə saxlanılıb və ardıcıllıqla yerinə yetirilib.

*(davamı 2-ci səhifədə)*

2_Layout 1 29.01.2018 15:45 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*(əvvəli 1-ci səhifədə)*

Nazirliyin rəhbərliyi tərəfindən 2.018, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 416 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həllini tapıb. Göstərilən sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq, polis əməkdaşlarının qanunsuz hərəkətləri barədə şikayətlərin sayı 12,2 faiz azalıb.

İclas iştirakçılarının nəzərinə o da çatdırılıb ki, respublikada cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini, vətəndaşların qanuni mənafelərinin müdafiəsi sahəsində əldə edilmiş müsbət nəticələrə ümumi sayı dünyanın əksər ölkələri ilə müqayisədə xeyli az, yəni əhalinin hər 100 min nəfərinə 259 vahid nisbətində olan polis qüvvələrinin aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlığı şəraitində nail olunub.

Nazir daxili işlər orqanlarına xidməti vəzifələrin icrasında yaxından köməklik göstərdiklərinə görə ölkə vətəndaşlarına, hüquq-mühafizə və xüsusi xidmət strukturlarının, kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların rəhbərlərinə və əməkdaşlarına təşəkkürünü bildirib.

Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov çıxış edərək ölkə Prezidenti zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda hüquqi-demokratik islahatların, böyük infrastruktur layihələrinin və sosial yönümlü proqramların uğurla həyata keçirildiyini xatırladıb.

Respublikamızda ictimai-siyasi sabitliyin, habelə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu, eyni zamanda, aidiyyəti dövlət proqramlarından, Milli Fəaliyyət planlarından irəli gələn vəzifələrin yüksək səviyyədə icra olunduğunu, cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahələrində bir sıra uğurlar qazanıldığını qeyd edib. Xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyətini, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyini nəzərə çatdırıb.

Məruzə ətrafında Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov, İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Heydər Heydərov, Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyev, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi Faiq Şabanov, Sumqayıt Şəhər Polis İdarəsinin rəisi Əkbər İsmayılov və başqaları çıxış edərək hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün qarşıya qoyulmuş vəzifələrdən, həyata keçiriləcək konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran Daxili İşlər Naziri 2017-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcud olduğunu bildirib, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldib, konkret tapşırıq və tövsiyələrini verib.

Nazir yerlərdə münaqişəli ailələrin vaxtında uçota götürülməsini, barələrində zəruri profilaktik tədbirlərin keçirilməsinə nəzarətin, əvvəllər məhkum olunmuş şəxslərlə profilaktikanın, eləcə də yol hərəkətinə nəzarətin, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin, xüsusən güclü təsirə malik narkovasitələrin aşkarlanması işinin gücləndirilməsini, istintaq və təhqiqat aparatının cinayətkarlığa qarşı mübarizədə aparıcı rolunun, aidiyyəti baş idarə və idarələr tərəfindən ərazi polis orqanlarına idarəçilik təsirinin artırılmasını tələb edib.

Yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında möhtərəm dövlət başçımızın dünyanın müxtəlif yerlərində risklərin, təhlükələrin artdığı bir zamanda ölkəmizdə sabitliyin, ictimai təhlükəsizliyin, normal həyatın təmin edildiyini, son illər respublikamızın dinamik inkişafının əsasında məhz stabillik, əmin-amanlıq amilinin dayanmasını bir daha vurğulamasına diqqət çəkən cənab nazir sabitliyin və təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətə verdiyi bu ali dəyərə cavab olaraq, daxili işlər orqanlarının bütün qurumlarının böyük əzmlə çalışmasının, peşəkarlığın artırılmasının diqqət mərkəzində saxlanılmasının, Azərbaycan Polisinin 100 illik yubileyini də Vətənə və dövlətə xidmətdə qazanılan yeni uğurlarla qarşılamasının əhəmiyyətini vurğulayıb.

Nazir general-polkovnik Ramil Usubov şəxsi heyət adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, ölkədə sabitlik, təhlükəsizlik, fundamental insan hüquq və azadlıqları digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə bundan sonra da etibarlı qorunacaq, qanunla müəyyən edilmiş vəzifələr və qarşıya qoyulmuş bütün tapşırıqlar tam həcmdə yerinə yetiriləcəkdir.

# "2017-ci İLDƏ DAXİLİ QOŞUNLARDA XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARI"NA DAİR ƏMƏLİYYAT MÜŞAVİRƏSİ KEÇİRİLİB

***Yanvarın 17-də Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2017-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.***



Müşavirəni giriş sözü ilə açan Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin 2017-ci ildə əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatın, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Nazir Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.

Qeyd olunub ki, görülmüş işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Daxili Qoşunların Komandanı ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, maddi-tədris bazasının inkişaf etdirilməsinin, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara yüksək peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

O da qeyd olunub ki, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq qrup halında nizamnamədənkənar münasibətə yol verilməyib, hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin, kobud intizam pozuntularının, xəsarətlərin sayı əhəmiyyətli dərəcədə azalıb.

Ötən il şəxsi heyətin kazarma-məişət şəraitinin yaxşılaşdırılması və müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində nəzərdə tutulan işlər uğurla icra edilib.

Müşavirəyə yekun vuran Daxili İşlər Naziri şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

Nazir bu yubileylər ilində baş tutacaq mühüm dövlət tədbirləri və "2018 Formula-1 Azərbaycan Qran Pri"si kimi beynəlxalq əhəmiyyətli idman yarışı ilə əlaqədar Daxili Qoşunlarda bütün təşkilati tədbirlərin müəyyən edilmiş vaxtda keçirilməsinin, bu zaman qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsinin əhəmiyyətini vurğulayıb.

Bundan əlavə, general-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, hərbi qulluqçuların Vətənə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilmələrinin, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsini, ekstremal hallar da daxil olmaqla, onların polis əməkdaşları ilə bərabər istənilən əmr və göstərişlərin ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarını tələb edib.

Nazir Daxili Qoşunların şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevi əmin edib ki, hərbi qulluqçular qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

**DİN-in Mətbuat xidməti**

# "2017-ci İLDƏ DAXİLİ QOŞUNLARDA XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARI"NA DAİR HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

***Yanvarın 16-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində "2017-ci ildə Daxili Qoşunlarda xidməti-döyüş fəaliyyətinin yekunları"na dair Hərbi Şuranın iclası keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi xidmətinin hərbi məsələlər sektorunun baş məsləhətçisi general-leytenant Elşad Babayev, Daxili Qoşunların Baş İdarəsinin idarə, şöbə, xidmət rəisləri, hərbi hissələrin komandirləri və komandir müavinləri iştirak ediblər.***






Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov məruzə ilə çıxış edərək, bildirib ki, 2017-ci ildə ölkəmizdə sosial-iqtisadi inkişafın dayanıqlığı və ən mühüm strateji vəzifələrdən biri olan davamlı ictimai-siyasi sabitlik təmin olunub.

Diqqətə çatdırılıb ki, ötən ilin xidməti-döyüş fəaliyyətində ən əlamətdar hadisə iyun ayının 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qoşunların Şirvan şəhərində yerləşən 25032 saylı hərbi hissəsinin açılışında iştirakı olub. Xidmətin aparılması üçün yaradılmış şəraitlə tanış olan cənab Ali Baş Komandan tərəfindən görülmüş işlər müsbət qiymətləndirilib, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur orqanlarından biri olan Daxili Qoşunların fəaliyyəti qeyd edilib. Hərbi hissənin açılışı, eləcə də Daxili Qoşunların 10 hərbi qulluqçusuna Gəncə şəhərində mənzillərin verilməsinin şübhəsiz ki, Ali Baş Komandanın diqqət və qayğısı sayəsində mümkün olması vurğulanıb.

Ötən ilin digər əlamətdar hadisəsi kimi Daxili Qoşunların yaradılmasının 25-ci ildönümü qeyd edilib və diqqətə çatdırılıb ki, martın 12-də Daxili Qoşunların Baş İdarəsində keçirilən təntənəli mərasimdə Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov tərəfindən ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin peşə bayramı münasibətilə şəxsi heyətə ünvanladığı təbrikinin və xoş arzularının çatdırılması şəxsi heyət arasında ruh yüksəkliyinə səbəb olub.

2017-ci ildə ölkə başçısının müvafiq sərəncamı ilə xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə 2 nəfər "Vətən uğrunda", 2 nəfər "İgidliyə görə", 16 nəfər "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub. Daxili İşlər Nazirinin müvafiq əmrilə isə 30 nəfər "Hərbi xidmətdə fərqləndiyinə görə" medalları ilə təltif edilib, 21 hərbi qulluqçuya həvəsləndirmə qaydasında vaxtından əvvəl növbəti hərbi rütbələr verilib.

Məruzəçi Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun tələb və göstərişləri əsasında ictimai qaydanın qorunmasında, ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə və xüsusi əməliyyatların keçirilməsində şəxsi heyət tərəfindən yüksək döyüş hazırlığının nümayiş etdirilməsini qeyd edib. IV İslam Həmrəyliyi Oyunları, "Formula-1 Azərbaycan Qran-Pri" və Atıcılıq üzrə Dünya Kuboku yarışları kimi mötəbər idman yarışları və beynəlxalq tədbirlərdə hüquq-mühafizə orqanları ilə birlikdə Daxili Qoşunlar müəyyən edilmiş vəzifələri peşəkarlıqla yerinə yetirib.

Nardaran qəsəbəsində baş vermiş məlum hadisələrlə əlaqədar polis orqanları ilə birgə hərbi qulluqçular tərəfindən hüquqi rejim təmin olunub və hazırda bu istiqamətdə xidmət davam etdirilməkdədir.

2017-ci il ərzində Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşlarına köməklik məqsədilə bir sıra tədbirlərə də cəlb olunub. Biləsuvar rayonunda ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsində, Naxçıvan Muxtar Respublikasının Ermənistan Respublikası ilə sərhədyanı ərazilərində baş verə biləcək təxribat aktlarının qarşısının alınmasında müvafiq tapşırıqlar icra olunub. Paytaxt və bölgələrdə keçirilən futbol oyunları, konsertlər, digər kütləvi tədbirlər zamanı ictimai qayda və ictimai təhlükəsizlik tam təmin edilib.

Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə sərhədyanı bölgələrində "Sərhəd-sipər", "Sərhəd" şərti adları ilə keçirilən birgə kompleks əməliyyat-axtarış və profilaktik tədbirlərdə qoşunların şəxsi heyəti ehtiyat qüvvə qismində xidmət aparıb. Zaqatala və Balakən rayonlarında narkotik tərkibli bitkilərin yabanı halda yayılmasının və kultivasiya edilməsinin qarşısının alınması üzrə "Xaş-Xaş 2017" kompleks əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə şəxsi heyət cəlb edilib və ümumilikdə, 21639 sayda narkotik tərkibli yabanı və kultivasiya edilmiş çətənə kolları aktlaşdırılaraq polis orqanlarına təhvil verilib. Həmçinin, Ağstafa rayonu ərazisində xüsusi təhlükəli cinayətkarların axtarışında da şəxsi heyət fəal iştirak edib.

İstehkamçı yarımqruplar tərəfindən də qarşıya qoyulmuş xidməti tapşırıqlar uğurla yerinə yetirilib. Beynəlxalq idman yarışları və tədbirlər zamanı 25874 ədəd avtomobilə baxış keçirilərək 44 adda qadağan edilmiş əşyalar götürülüb və polis əməkdaşlarına təhvil verilib. Bununla yanaşı, digər tapşırıqların icrası zamanı müxtəlif növ 14 ədəd silah, 2 ədəd partlayıcı maddə və 274 ədəd güllə tapılıb, 3 ədəd partlayıcı maddə zərərsizləşdirilib.

Müdafiə Nazirliyinin Xızı rayonunda yerləşən "N" saylı hərbi hissəsinin sursat anbarında baş vermiş partlayışla bağlı Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin və Fövqəladə Hallar Nazirliyinin şəxsi heyətinə təxirəsalınmaz tədbirlərin görülməsində köməklik göstərilib. İstehkamçı yarımqrupların müvafiq sayda hərbi qulluqçusu tərəfindən 7346 hektar ərazidə axtarış tədbirləri həyata keçirilib və partlamamış hərbi sursatlar, partlamış-yanmış mərmi qalıqları, yandırma atımı (barıt) tapılaraq aktlaşdırılıb.

Ötən il ərzində qorunan obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin etmək üçün gündəlik olaraq döyüş xidmətinə tələb olunan sayda qarovul və qoşun nəryadı təyin edilib. Xidmətin təşkili və aparılması zamanı cinayət, hadisə və kobud intizam pozuntusu hallarına yol verilməyib.

Cənab Komandan, eyni zamanda, 2017-ci il ərzində döyüş təliminin başlıca vəzifələrinin yüksək döyüş hazırlığının təmin edilməsindən, şəxsi heyətin nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılmasından, komandir və peşə hazırlığı səviyyəsinin yüksəldilməsindən, maddi-texniki tədris bazasının inkişaf etdirilməsindən ibarət olduğunu da nəzərə çatdırıb. Qeyd edib ki, əməliyyatların planlaşdırılması, düzgün qərarın qəbul edilməsi və idarəetmə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Bakı qarnizonu hərbi hissələrinin komandanlıqlarının iştirakı ilə komanda-qərargah təlimi keçirilib.

*(davamı 3-cü səhifədə)*

## ŞƏHİDLƏRİMİZ

# ŞƏRƏFLİ VƏ FƏDAKAR ÖMÜR YAŞADI...

***Azərbaycan Respublikası Prezidentinin 12.03.2009-cu il tarixli, 204 nömrəli Sərəncamı ilə baş leytenant Zahid Mahmudov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub***

**Hörmət, ehtiramsız bir anın olmur,**
**Kim deyər adını tutanın olmur,**
**Şəhidlər tək bircə atanın olmur,**
**El çəkir bu qəmi, bu dərdi, Zahid!**

Bu misralar şair Mədət Məhbubun Daxili Qoşunların şəhid zabiti baş leytenant Mahmudov Zahid Alı oğluna həsr etdiyi şeirindəndir. Həmin şeir 1996-cı ildə "Dəli Kür" qəzetində dərc olunub. M.Məhbubun şəhid həmkəndlisi haqqında qələmə aldığı şeirdə vurğulanan dəyişməz bir həqiqət var - şəhidlər el yaddaşında heç vaxt unudulmur!

Zahid Mahmudov 1955-ci il may ayının 18-də Qazax rayonunun Yuxarı Salahlı kəndində, Mahmudovlar ailəsində anadan olub. Bu kənd bütün Azərbaycanda məşhurdur. Belə ki, dahi şairlərimiz Vaqif və Səməd Vurğun Yuxarı Salahlıda dünyaya göz açıblar. Bir sıra digər görkəmli şəxsiyyətlərimiz də bu kənddə doğulublar. Yuxarı Salahlı vətənpərvər ruhlu, mənəvi dəyərlərimizə bağlı olan insanların yaşadığı yurddur.

Şəhidin valideynləri - Alı Mahmudov və Səmayə Mahmudova el-obasını sevən, zəhmətkeş, xeyirxah insanlar kimi xatırlanırlar. Onlar övladlarını da bu ruhda tərbiyə etmişlər. Mahmudovlar ailəsində üç oğul və bir qız övladı dünyaya gəlib. Bu övladlardan hər biri öz müsbət keyfiyyətləri ilə cəmiyyətdə hörmət qazanıb.

Z.Mahmudov Yuxarı Salahlı kəndinin orta məktəbinin məzunudur. 1972-1973-cü illərdə əmək fəaliyyətinə başlayaraq o vaxtkı Vaqif adına üzümçülük sovxozunda işləyib. Sonra Bakı Rabitə Elektrotexnikumuna (hazırda Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci) qəbul olunub. Burada rabitəçi peşəsinin sirlərinə yiyələnib. Təhsili ilə yanaşı, əmək fəaliyyətini davam etdirib.



Belə ki, Respublika Rabitə Nazirliyi (hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi) Bakı Şəhər Telefon Şəbəkəsində texniki işə götürülüb. 1975-ci ildə isə Z.Mahmudov sovet ordusu sıralarına hərbi xidmətə çağırılıb. Xidmət etdiyi hərbi hissə Ukraynada yerləşib. Səhhəti ilə əlaqədar olaraq hərbi xidmətdən vaxtından əvvəl tərxis edilib. Hərbi xidmətdən qayıtdıqdan sonra texnikumda təhsilini bitirib.

Onun çoxşaxəli əmək bioqrafiyasının təhlili göstərir ki, təyin olunduğu vəzifələrdə əzmlə çalışıb, peşəkarlıq səviyyəsinin artırılmasına nail olub, üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşıb. Əmək fəaliyyətinin qısa bir müddəti (1976-cı il) Sumqayıt Xlorlu Üzvi Məhsullar Zavodu ilə bağlıdır. Sonrakı mərhələdə isə (1977-1992-ci illər) rabitə sahəsindən ayrılmayıb. Respublikamızın Rabitə Nazirliyi Mərkəzi Telefon Rabitəsi İB-in Telefon Qovşağında ona müxtəlif məsul vəzifələr həvalə olunub. Harada işləyibsə, rəhbərliyin etimadını doğruldub. Bunu əmək kitabçasındakı mükafatlar barədə qeydlər də təsdiqləyir.

Z.Mahmudov 1988-1991-ci illərdə milli azadlıq hərəkatının fəallarından olub. O, Azərbaycanın uğurlu gələcəyini onun müstəqilliyə qovuşmasında görürdü. SSRİ rəhbərliyinin Qarabağ məsələsində ermənipərəst mövqeyinə etiraz səsini ucaltmaqdan çəkinmirdi. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı ölüm təhlükəsi ilə üz-üzə qalmışdı...

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycanın öz dövlət müstəqilliyini elan etməsindən sonra müstəqil dövlət quruculuğu dövrü başladı. O, bir rabitə mütəxəssisi kimi öz sahəsi üzrə respublikamızın inkişafına töhfə vermək əzmi və məramı ilə çalışırdı.

1992-ci ildən başlayaraq Dağlıq Qarabağ və ətraf rayonlara erməni hərbi təcavüzünün şiddətlənməsi şəraitində respublikadaxili vəziyyət gərginləşmişdi. Xocalıda ermənilərin törətdiyi soyqırım, Şuşa və Laçının işğal olunması Z.Mahmudovu da dərindən sarsıtmışdı.

1992-ci ilin iyun ayında DİN-in Daxili Qoşunlarına hərbi xidmətə qəbul olunmaq təklifinə tərəddüd etmədən razılıq vermişdi. O, təcrübəli rabitə mütəxəssisi kimi Daxili Qoşunların Rabitə xidmətinin rəisi vəzifəsinə təyin olunub. Onun Daxili Qoşunlarda rabitə sisteminin müharibə şəraitinin tələblərinə uyğun qurulmasında öz əməyini əsirgəmədiyi xüsusi qeyd edilməlidir. Bacarıqlı bir mütəxəssis kimi o, ön cəbhədə döyüş əməliyyatlarına cəlb olunan, habelə dövlətin ictimai təhlükəsizliyinin keşiyində dayanan Daxili Qoşunlar üçün rabitənin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini tam məsuliyyəti ilə anlayır və bu yöndə vəzifə borcunu fədakarcasına yerinə yetirirdi.

Baş leytenant Z.Mahmudovun iş qeydləri apardığı bloknotu vərəqlədim. Bloknotdakı qeydlər onun gərgin iş rejimində fəaliyyət göstərdiyini təsdiqləyir. Həmin dövrdə Daxili Qoşunların hərbi hissələri ön cəbhənin ayrı-ayrı istiqamətlərində düşmənlə vuruşurdular. Ağdam-Ağdərə bölgəsində vəziyyət xüsusilə ağır idi. Baş leytenant Z.Mahmudov rabitənin təşkili ilə bağlı tədbirlərin görülməsi üçün döyüş zonasına



da ezam olunur, vətənpərvər bir zabit kimi çətin sınaqlardan çəkinmirdi.

1992-ci il avqustun 6-da o, Tərtər-Ağdərə bölgəsinə ezam olunub. Avqustun 7-də isə ermənilərin Ağdərə istiqamətindən hücumu başlayıb. Hərbi qulluqçularımız hücumun qarşısının alınmasına cəlb olunublar. Möhrətaq (indiki Kiçik Qarabəy) kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən baş leytenant Z.Mahmudov düşmən artilleriyasının atəşi altında mərmi qəlpələrindən ağır yaralanaraq şəhid olub. Həmin döyüşdə ağır yaralanmış əsgər İsmayıl Mehdiyevi ərazidən çıxarmağa cəhd edib, lakin yaxınlıqlarında mərmi partlayışı onun həyatına son qoyub, İsmayıl isə təkrar yaralansa da, sağ qalıb. Bu gün İsmayıl Qazax rayonunun Yuxarı Salahlı kəndində yaşayır, I qrup əlildir. İsmayıl mənimlə telefon söhbətində şəhidi qorxmaz və qeyrətli bir zabit kimi həmişə ehtiramla xatırladığını söylədi.

Daxili Qoşunların veteranları Səfxan Bayramov, Ramiz Abdullayev və Vüqar Bayramov şəhid haqqında söhbət zamanı onu ləyaqətli, öz şərəfini uca tutan, vətənini və xalqını sevən, döyüş sınaqları qarşısında iradəsini itirməyən, peşəsini mükəmməl bilən zabit kimi xarakterizə etdilər.

Baş leytenant Z.Mahmudov Qarabağ müharibəsində Yuxarı Salahlı kəndinin ilk şəhididir. Doğma yurdunda dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 12.03.2009-cu il tarixli, 204 nömrəli Sərəncamı ilə baş leytenant Z.Mahmudov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub. Bundan əlavə, o, ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Fəxri Fərmanı ilə mükafatlandırılıb.

Şəhidin qardaşı Fazil Mahmudov onun hərbi xidmət yolunu davam etdirib. Daxili Qoşunların sıralarından mayor hərbi rütbəsində ehtiyata buraxılıb. O, mənə danışdı ki, anası şəhid qardaşının köynəyini uzun illər heç kəsə göstərmədən sandıqda saxlayıb. Vəfatından əvvəl öləndə oğlunun köynəyi geyindirilərək dəfn olunmasını vəsiyyət edib. Dəfn zamanı bunu etmək mümkün olmasa da, şəhidin köynəyini kəfənin içinə qoyublar.

Şəhid zabitin həyat yoldaşı Gültəkin Mahmudova xarici dil müəlliməsidir. Bakıda 212 saylı orta məktəbdə işləyir. O, ailə başçısının ölümündən sonra nə qədər əzablı olsa da, mənəvi gücünü toparlayaraq, onun ocağını yaşadıb, övladlarını böyüdüb, onların xoşbəxtliyi, dövlətimizə gərəkli vətəndaş kimi formalaşmaları üçün zəhmətini əsirgəməyib.

Baş leytenant Z.Mahmudovun iki oğlu var. Böyük oğlu Zaur Mahmudov Dövlət İqtisad Universitetinin məzunudur, iş adamıdır. Kiçik oğlu Anar Mahmudov isə Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunudur. O, Daxili Qoşunların zabitidir, hərbi rütbəsi baş leytenantdır. 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində layiqincə xidmət edir. XTD komandirinin xüsusi hazırlıq üzrə müavinidir. Ən böyük arzusu atasının şəhidlik zirvəsinə ucaldığı kəndi və işğal altındakı digər yurdlarımızı düşmən tapdağından azad edəcəyimiz günə qovuşmaqdır.

Hər iki qardaş evlidir, övladları var. Şəhidin oğul nəvələrindən biri onun adını daşıyır.

Qeyd edim ki, Yuxarı Salahlı kəndindəki orta məktəb şəhid zabitin adını daşıyır. Məktəbdə şəhidin adını əbədiləşdirmək üçün xatirə guşəsi yaradılıb.

Bu günədək dövri mətbuatda şəhid hərbi qulluqçumuz haqqında bir sıra yazılar dərc olunub.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# "2017-ci İLDƏ DAXİLİ QOŞUNLARDA XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARI"NA DAİR HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

*(əvvəli 2-ci səhifədə)*

Xüsusi vasitələrin tətbiqi və xüsusi təyinatlı dəstələrlə xüsusi-taktiki təlimlər təşkil edilib, silah və xüsusi vasitələrdən, döyüş texnikasından effektiv istifadə edilməsinə diqqət yetirilib.

Daxili İşlər Nazirliyinin tədbirlər planına uyğun olaraq, polis orqanları ilə Daxili Qoşunların Təlim Mərkəzində "Yaşayış məntəqəsində ictimai asayişin qrup halında pozulması hallarının, digər hüquq pozuntularının və cinayətlərin qarşısının alınmasında şəxsi heyətin fəaliyyəti" mövzusunda birgə təlim keçirilib.

Qoşunların səhra təcrübəsinin artırılması məqsədilə şəxsi heyət 611 gün səhra təlimlərinə, 396 dəfə atıcılıq məşqlərinə cəlb olunub. Müxtəlif ixtisaslı hərbi qulluqçularla 14 metodiki-təlim toplanışı keçirilib. Xüsusi təyinatlı dəstələrin hərbi qulluqçuları ilə "Zoğalı beret" daşıma hüququnu qazanmaq üçün peşə sınaqlarında 56 hərbi qulluqçu iştirak etmək hüququ qazanıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq qoşunlara müddətli həqiqi hərbi xidmət keçmək üçün 2490 çağırışçı qəbul olunub, 2745 çavuş və əsgər Silahlı Qüvvələrə ehtiyata buraxılıb, müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular arasından 169 nəfər müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Bölmələrin komplektləşdirilməsi üçün 207 kiçik komandir, 55 sürücü, 35 rabitəçi, 60 aşpaz hazırlanıb.

2017-ci ildə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün rabitə, kimya və mühəndis avadanlıqlarına, silahlara, xüsusi vasitələrə, avtomobil və digər xüsusi texnikaya illik texniki baxışlar keçirilib.

Məruzədə bildirilib ki, il ərzində respublikada baş verən ictimai-siyasi hadisələr diqqət mərkəzində saxlanılıb, Milli Lider Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsinə önəm verilərək, ictimai-siyasi hazırlıq məşğələlərində Ulu Öndərin həyat yolu, siyasi fəaliyyəti barədə məlumat verilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirlərin əhəmiyyəti, vətəndaşların hüquq və azadlıqlarının qorunması izah olunub, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmanın vacibliyi vurğulanıb.

Hərbi intizamın möhkəmləndirilməsi, qarşılıqlı münasibətlərdə nizamnamə qaydalarına riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq hadisələrin sayı 5, cinayətlərin sayı 1, kobud intizam pozuntularının sayı 10, xəsarətlərin sayı isə 4 hal azalıb.

Cənab Komandan bildirib ki, 2017-ci il ərzində Daxili Qoşunların Baş İdarəsinə daxil olan müraciətlərin sayında 26.3 faiz azalma müşahidə olunub. Müraciətlərin böyük əksəriyyəti ərizə, çox az hissəsi isə şikayət xarakterli olub. Daxil olmuş ərizələr üzrə tədbirlər görülüb, şikayətlər üzrə tam araşdırmalar aparılıb, gecikdirmələrə yol verilmədən vətəndaşlara müvafiq cavablar verilib. Daxili Qoşunların Komandanlığı tərəfindən 190 nəfər vətəndaş qəbul edilib, hüquqi yardım göstərilib, onları maraqlandıran suallar ixtisaslı şəkildə cavablandırılıb.

2017-ci ildə Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdən də söz açan cənab Komandan qeyd edib ki, Daxili İşlər Nazirinin rəhbərliyi altında bu istiqamətdə işlər ardıcıl olaraq davam etdirilib, şəxsi heyətin kazarma-məişət şəraiti müasir standartlara uyğunlaşdırılıb. Bir çox hərbi hissələrdə hərbi və məişət obyektlərinin təmiri aparılıb, lazımi avadanlıqlarla təmin edilərək yenidən istifadəyə verilib. Nəqliyyat vasitələrinin sazlığı və düzgün istismarı təmin edilib, yol hərəkəti qaydalarının qarşısının alınması üçün dövlət yol polisi əməkdaşlarının iştirakı ilə məşğələlər təşkil olunub. Diqqətə çatdırılıb ki, 2017-ci ildə 12565, 16076 və 16075 saylı hərbi hissələrin komandanlığı müsbət nəticələr əldə edib.

Məruzədə əldə edilmiş nailiyyətlərlə yanaşı, 2017-ci il ərzində xidməti-döyüş fəaliyyətində nəzərəçarpan bir sıra nöqsan və çatışmazlıqların mövcudluğu vurğulanıb. Onların aradan qaldırılması yolları hərbi hissələrdə xidməti-döyüş fəaliyyətinin yekunları ilə bağlı Baş İdarənin vəzifəli şəxslərinin iştirakı ilə keçirilən iclaslarda geniş müzakirə olunub. Həmçinin, il ərzində Hərbi Şuranın iclaslarında nöqsanların müzakirəsinə geniş yer verilib, aidiyyəti hərbi hissə komandanlıqları dinlənilib və onların planlı şəkildə aradan qaldırılması barədə tapşırıqlar verilib.

Qoşunların xidməti-döyüş fəaliyyətinin hər zaman Daxili İşlər Naziri general-polkovnik cənab Ramil Usubov tərəfindən dəstəklənərək, daima diqqətdə saxlanıldığını deyən general-leytenant Ş.Məmmədov çıxışının sonunda nəzərə çatdırıb ki, bu gün Daxili Qoşunların qarşıda duran vəzifələri uğurla yerinə yetirməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərdiyi diqqət sayəsində lazımi şərait yaradılıb, şəxsi heyət hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.

İclasda bir sıra hərbi hissə komandirlərinin və onların müavinlərinin hesabatları dinlənilib.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "2017-ci ildə Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yekunları barəsində" əmri elan edilib. Ən yaxşı nəticələr əldə edən hərbi hissələr "Fərman"la təltif olunublar.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı bildirib ki, Daxili Qoşunlar qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə həmişə hazır olacaq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələr bundan sonra da layiqincə yerinə yetiriləcək, şəxsi heyət polis orqanlarının əməkdaşları ilə birgə ölkədə sabitliyin və ictimai asayişin keşiyində mətinliklə dayanacaq.

**Mətbuat xidməti**

# GƏNCLƏRİMİZİN ƏN ÜMDƏ VƏZİFƏSİ VƏTƏNƏ, ÖLKƏMİZƏ, DOĞMA TORPAĞIMIZA DAİM SƏDAQƏTLİ OLMAQDIR!

***Heydər Əliyev,***
***Azərbaycan Xalqının Milli Lideri***

"Gənclər günü" MDB məkanında və Şərqi Avropada ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Ötən əsrin sonlarında ölkədə baş verən gərgin ictimai-siyasi proseslər zamanı fiziki və mənəvi təzyiqlərə məruz qalan, cəmiyyətin laqeydliyi və biganəliyi ilə qarşılaşan sosial qruplardan biri də gənclər idi. Həmin vaxtlarda respublikada müxtəlif gənclər təşkilatı yaradıldı. Lakin bu təşkilatlar gənclərin mənəvi-estetik tərbiyəsinin formalaşdırılmasında, onların sosial qayğılarının həll edilməsində rol oynaya bilmədi. Onların əksəriyyəti əsasən tələbələri və qismən də müharibə iştirakçılarını əhatə edirdi. Gənclərin digər kateqoriyaları isə həmin qurumlardan kənarda qalırdı.

Bu çatışmazlıqların aradan qaldırılmasında, gənc nəslin əsl vətəndaş kimi tərbiyə olunmasında, onların bir qüvvə kimi cəmləşdirilməsində və dövlət gənclər siyasətinin formalaşdırılmasında Milli Lider Heydər Əliyevin rolu danılmazdır. Belə ki, məhz Ulu Öndərin ölkəyə rəhbərliyi dövründə - 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsi haqqında, 1997-ci ilin fevralın 1-də isə «2 fevral - Azərbaycan Gəncləri günü» elan edilməsi haqqında sərəncamlar imzalandı. Gənclər və İdman Nazirliyi yaradıldı. Bütün bunlar Azərbaycan gənclərinə göstərilən qayğının və diqqətin təzahürü idi. Yalnız bundan sonra digər MDB və Şərqi Avropa dövlətlərində bu bayram qeyd olunmağa başladı.

Gənclərin 1-ci forumunun keçirilməsi, əslində, çox mühüm əhəmiyyət kəsb edən bir tarixi hadisə idi. Tədbirdə Heydər Əliyevin nitqi hər bir Azərbaycan gənci üçün həyat devizinə çevrildi: "Gənclərimizin ən ümdə vəzifəsi Vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda, öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır".

Bu gün cəmiyyətdə gənclərin rolu artmağa başlayıb. Demək olar ki, hər sahənin inkişafında, respublikamızın iqtisadi cəhətdən qüdrətli bir dövlət kimi tanınmasında gənclərimiz aparıcı qüvvədir. İstər elm, təhsil və incəsənətdə, istərsə də digər sahələrdə gənclər daim uğur qazanırlar. Bu gün Azərbaycan gəncliyi bir sıra beynəlxalq qurumlarda da müvəffəqiyyətlə təmsil olunur, beynəlxalq təşkilatlarla əlaqələr saxlayır. Təbii ki, bu uğurlarda, ölkəmizdə gənclər siyasətinin daha da inkişaf etdirilməsində qəbul olunan bir sıra dövlət proqramlarının mühüm rolu olub. "Azərbaycan Gəncliyi (2005-2009-cu illər)", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramlarının icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş verib, gənclərin vətənpərvərlik hisslərinin formalaşmasında davamlı işlər aparılıb, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilib, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılıb.

Həmçinin, gənc mütəxəssislərin işlə, gələcəyin tələblərinə cavab verən təhsil almaları üçün bərabər imkanlarla təmin edilməsi, gənclərin, o cümlədən gənc əlillərin sosial müdafiəsinin gücləndirilməsi, onların sosial-iqtisadi problemlərinin həlli və digər mühüm məsələlər də həmin proqramlarda öz əksini tapıb.

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" dövlət proqramı isə adıçəkilən proqramların məntiqi davamı olaraq, ölkədə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsi, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialını üzə çıxarmaq, gənc nəslin sağlamlığını qorumaq, təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq məqsədilə qəbul olunub.

Proqramın icrası ilə bağlı Daxili Qoşunlarda da bir sıra mühüm addımlar atılıb və bundan sonra da davam etdirilməsi nəzərdə tutulur. Belə ki, gənc hərbi qulluqçularımızın maarifləndirilməsi, onların hərbi biliklərinin artırılması istiqamətində bir sıra işlər görülür. Nümunəvi xidmətilə seçilən hərbi qulluqçularımız, şəhid döyüşçülərimizin göstərdiyi qəhrəmanlıqlar, onların Vətən yolunda fədakarlıqla canlarından keçmələri və digər tərbiyəvi mövzularda kollektiv söhbətlər aparılır, məqalələr hazırlanır, metodiki vəsaitlər dərc olunur, vətənpərvərlik hisslərini aşılayan müxtəlif tədbirlər keçirilir.

Gənc nəslin tərbiyəsində Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ideyaları əsas götürülür.

Nəzərə alsaq ki, bu gün ordu quruculuğu prosesində gənclərin rolu danılmazdır və Silahlı Qüvvələrin əsasını məhz gənclər təşkil edir, o zaman onların düzgün istiqamətdə formalaşmasına daha çox diqqət yetirilməlidir. Xüsusilə, torpaqlarımızın bir hissəsinin işğal altında olduğu bir vaxtda Vətənin müdafiəsində mətinliklə duran bütün gənc hərbi qulluqçularımız dərindən dərk edirlər ki, işğal olunmuş torpaqlarımızın düşməndən azad edilməsində əsas yük onların çiyinlərinə düşəcək. Bu müqəddəs tapşırığın yerinə yetirilməsinə hər bir Azərbaycan gənci hazırdır!!!

**baş leytenant X.Hacızadə**

4_Layout 1 29.01.2018 17:41 Page 1



# ŞƏXSİ HEYƏTİN SANİTAR-EPİDEMİOLOJİ SAĞLAMLIĞININ TƏMİN EDİLMƏSİ YÜKSƏK SƏVİYYƏDƏ HƏYATA KEÇİRİLMƏKDƏDİR



***Bu gün Daxili Qoşunların şəxsi heyəti üzərinə düşən bütün növ tapşırıqların öhdəsindən layiqincə gəlir. Əlbəttə ki, müvəffəqiyyətlərin əldə olunmasında bir neçə mühüm faktor var. Bunlardan biri də sözsüz ki, şəxsi heyətin sağlamlığı və bu istiqamətdə görülən qabaqlayıcı profilaktik tədbirlərdir. Daxili Qoşunların Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsi (SED) üzərinə düşən bu vəzifələri uğurla icra edir.***

SED hərbi hissələrdə yoluxucu xəstəliklərin qarşısının alınması, ləğv edilməsi üzrə sanitar-əksepidemik tədbirləri təşkil edir, eyni zamanda sanitar-gigiyenik və bakterioloji müayinələr aparır.

Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsinin rəisi-baş sanitar həkim tibb xidməti polkovnik-leytenantı Vüqar İbrahimov söhbət əsnasında dəstənin fəaliyyəti, gördüyü işlər barədə ətraflı məlumat verdi. Şəxsi heyət arasında gigiyenik normalara, sanitar qaydalara riayət olunmasına nəzarət etmək, hərbi qulluqçuların ətraf mühitin ekstremal şəraitinə adaptasiyası üçün tədbirlərin görülməsi, o cümlədən hərbi xidmət şəraitində fiziki, kimyəvi-bioloji, sosial amillərin



təsirinin gigiyenik normallaşdırılması dəstənin yerinə yetirdiyi funksional vəzifələrdir. SED hərbi qulluqçuların xəstələnmə səviyyəsini, fiziki inkişafını və digər sağlamlıq göstəricilərinin gigiyenik təhlilini də aparır. Sadalananlarla yanaşı, şəxsi heyətin gigiyenik tərbiyəsi, sanitar maarifləndirilməsi də həyata keçirilir.

Fəaliyyət göstərən laboratoriyalarda isə müxtəlif müayinələr aparılır. Bakterioloji laboratoriyada sanitar-bakterioloji, kliniki-mikrobioloji və sereloji müayinələr həyata keçirilir. Sanitar-bakterioloji müayinə dedikdə, hərbi hissələrdən qəbul edilən su, yuyuntu nümunələrinin, eləcə də obliqat qrupları dövri müayinələri başa düşülür. Mikrobioloji dedikdə, Daxili Qoşunların Hərbi Qospitalının şöbələrindən götürülən müvafiq analizlərin müayinəsi anlaşılır.

Sanitar-gigiyena laboratoriyasında isə su, ərzaq, habelə hazır xörək nümunələrinin fiziki-kimyəvi müayinələri aparılır. Yəni hazır xörək nümunələrinin faktiki kalorisi hesablanır. Daxili Qoşunların Mərkəzi Anbarına daxil olan ərzaqların gigiyenik təhlili də sanitar-gigiyena laboratoriyasında aparılır.

Dəstə rəisinin sözlərinə görə, xidmət işini mövcud rəhbər sənədlərin, müvafiq



əmrlərin tələbləri əsasında qurur. Hər gün səhər xidməti müşavirə keçirilir və hər bir hərbi qulluqçuya konkret olaraq tapşırıq verilir. Sonra hərbi qulluqçular aidiyyəti üzrə funksional vəzifələrinin icrasına başlayırlar.

SED-in laboratoriya rəisi tibb xidməti kapitanı Fərqanə Ramazanova laboratoriyanın fəaliyyətini planlaşdırır, müayinələrin aparılmasına metodik rəhbərlik edir.

Həkim-epidemioloq tibb xidməti baş leytenantı Nuranə Camalova zərurət olduqda yoluxucu xəstəliklərin ocağının məhdudlaşdırılması, ləğv edilməsi məqsədilə epidemioloji müayinə aparır, həmçinin, təxirəsalınmaz əksepidemik tədbirlər həyata keçirir.

Həkim-gigiyenist tibb xidməti mayoru Könül Qasım-zadə hərbi ticarət obyektlərində sanitariya qaydalarına, gigiyenik normalara riayət edilməsinə, o cümlədən, hərbi obyektlərdə və cari sanitariya nəzarətini aparır.

Parazit xəstəliklərinin profilaktikasını, məhdudlaşdırılmasını və ləğvini SED-də həkim-parazitoloq tibb xidməti leytenantı Reyhan Zülfüqarova yerinə yetirir.

Həkim-bakterioloq tibb xidməti baş leytenantı Jalə Məhərrəmova da funksional vəzifələrini layiqincə icra edir. O, bakterioloji, sanitar-bakterioloji, sereloji müayinələri siyahı üzrə nəzərdə tutulmuş həcmdə aparır, eyni zamanda, bölgələrdə ezamiyyətlərdə olarkən hərbi hissələrin həkimlərinə praktiki və metodiki köməklik göstərir. Dəs-



tənin digər hərbi qulluqçuları : feldşer-laborantlar baş gizir Nuran Məmmədova, gizirlər Günel Quliyeva, Səbinə İbrahimova və məsul icraçı gizir Vüsalə Şirinova da xidməti vəzifə borclarının öhdəsindən layiqincə gəlirlər.

Bir sözlə, dəstənin hərbi qulluqçuları şəxsi heyətin sanitar-epidemioloji sağlamlığının təmin edilməsi üçün əllərindən gələni əsirgəmirlər.

**baş leytenant T.Əlizadə**

# TÜTÜNÜN ZƏRƏRLƏRİ BARƏDƏ NƏ BİLİRİK?

***Müasir dövrümüzdə bəşəriyyətin qarşısında duran ən ciddi problemlərdən biri də tütündür. Tütünün insan orqanizminə ziyanları haqqında nə qədər təbliğat aparılsa da, təəssüflər olsun ki, ondan istifadə edənlərin sayı getdikcə artmaqdadır.***

***Məlumat üçün bildirək ki, Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, dünyada hər il təxminən 5 milyona yaxın insan siqaretin zəhərli təsiri nəticəsində dünyasını dəyişir. 2020-ci ildə isə bu rəqəmin 2 dəfə artacağı gözlənilir.***

### Siqaret bədəndə 20 növ xərçəng xəstəliyi yaradır...

Alimlər siqaret çəkməyin sağlamlığa nə qədər ağır zərbələr vurduğunu bildirsələr də, insanlar sağlamlıqlarını təhlükə qarşısında qoyduqlarını düşünmək belə istəmirlər. Əgər onlar siqaretin törətdiyi xəstəlikləri dərindən anlasalar, bəlkə də bu vərdişdən bir çox insan imtina edər, tüstüsüz, sağlam həyat tərzinə üstünlük verər.

Mütəxəssislərin qənaətinə görə, siqaret yaşından asılı olmayaraq, hər bir şəxsə mənfi təsir göstərir və orqanizmdə bir çox xəstəliklər yaradır. Siqaretin yaratdığı ən ağır xəstəlikdən biri də xərçəngdir. Siqaret bədəndə 20 növ xərçəng xəstəliyinin yaranmasında əsas rol oynayır. Ağ ciyər xərçəngi, qida borusu xərçəngi, tənəffüs üzvləri xərçəngi və s.

Siqaret nikotin və menoksidkorben kimi öldürücü tərkib hissəsi ilə bədən üzvlərində, ağ ciyər və bağırsaqlarda ölümlə nəticələnən xərçəngyaradıcı virusların törənməsinə zəmin yaradır. Adamlar siqareti çəkməyə başlayan kimi onun mənfi təsirlərinə məruz qalırlar. İnsanlar siqaretin tərkibində olan nikotinə alışırlar. Nikotin alkoqol və kokain qədər güclü təsirə malikdir. Bunun nəticəsi olaraq, tütün ağ ciyərlərdə xərçəng xəstəliyinin yaranmasına zəmin yaradır. Amerika Xərçəng Cəmiyyətinin bildirdiyinə görə, Birləşmiş Ştatlarda ağ ciyərdə xərçəng xəstəliyinin yaranmasına 87 faiz siqaret çəkmək səbəb olur. Ağız boşluğu, qida borusu, böyrək, dalaq və mədəaltı vəzdə xərçəng xəstəliyi çox hallarda siqaret çəkmək nəticəsində əmələ gəlir.

Alimlərin araşdırmaları sübut etmişdir ki, siqaretin tərkibi müxtəlif zəhərli və xərçəngtörədici maddələrlə doludur. Belə ki, siqaretdə 4560 zəhərli, 60-dan çox xərçəngə səbəb olan maddə aşkar edilib. Alman mütəxəssislərinin gəldikləri qənaətə görə, siqaret çəkmək insan sağlamlığına ziyan yetirməklə yanaşı, beyinin iş fəaliyyətinin ölçüsünü azaldır. Tədqiqatçılar 11-64 yaş-arası şəxslərin qavrama dərəcəsini ölçərkən bu nəticəyə gəliblər ki, uzun illər boyu siqaret çəkən şəxs qocaldıqda sağlam və geniş fikrə, dərin düşüncəyə malik olmur. Eyni zamanda, siqaret iştahanı azaldaraq qidanın həzmini ağırlaşdırır, sümük boşluğu və digər ciddi problemlərə səbəb olur. Onu da əlavə edək ki, siqaret yuxu sistemini qarışdırır və oyanmanı çətinləşdirir, ümumi iş qabiliyyətini və fəalliyyəti azaldır, görmə qabiliyyətini çətinləşdirir, ağız boşluğunda pis qoxu yaradır.

### İnfarktı yaradan əsas amillərdən biri də nikotindir

Siqaretin törətdiyi qorxulu xəstəliklərdən biri də infarktdır. Tütün məhsullarından istifadə edən şəxslərin ürəyində qan dövranı azalır və ürəyin fəaliyyəti zəifləməyə başlayır. Damarların kilidləşməsinə səbəb olan və qan dövranının fəaliyyətini əngəlləyən nikotin qan təzyiqini artırır və bu da infarktın yaranmasına şərait yaradır. Araşdırmalar göstərir ki, infarkt keçirən xəstələrin 85%-i siqaret çəkən şəxslərdir ki, bunun da əksər hissəsi kişilərdir.

### Uşaqları siqaret tüstüsündən qoruyun!

Siqaretin böyük bəlalarından biri də onun passiv şəkildə yayılmasıdır. Belə ki, siqaret çəkən şəxsin yanında durmaq və ya onunla təmasda olmaq nəticəsində tütünün zəhərli maddələri insan orqanizminə daxil olur ki, bu da passiv tütünçəkmə adlanır. Bundan ən çox əziyyət çəkənlər isə uşaqlardır. Siqaretin fəsadlarının nə demək olduğunu bilməyən uşaqlar onun tüstüsünü qəbul edirlər. Bu onların hələ tam formalaşmayan orqanizminə dəhşətli dərəcədə mənfi təsir göstərir. Gələcəkdə bir çox xəstəliklərin yaranmasını sürətləndirir. Əgər hər hansı valideyn siqaret çəkirsə, öz övladı ilə təmasda olarkən nəfəs alanda belə uşağa mənfi təsir göstərir, onu infeksiyalara yoluxdurur. Təhqiqatlar müəyyən edib ki, uşaqlarda infeksiyanın 13 %-i ətrafdakıların siqaret çəkməsi nəticəsində yaranır. Siqaretdən aktiv şəkildə istifadə edən uşaqlar və ya yeniyetmələrdə isə vəziyyət daha acınacaqlıdır. Onlarda sonsuzluq, kütbeyinlik, əsəb kimi xəstəliklərin yaranması qaçılmazdır.

### Qadınların tütünə aludəçiliyi daha təhlükəlidir

Dünya sağlamlıq təşkilatlarının məlumatına görə, siqaret qadınlara kişilərə nisbətən ikiqat mənfi təsir göstərir. Gündəlik həyatda çətinliklərlə qarşılaşan xanımlar kişilərdən fərqli olaraq daha çox stress keçirirlər və bu stresi aradan qaldırmaq üçün siqaret çəkməyi üstün tuturlar. Bu stress qadınları siqaretdən asılı edir və onu tərgitməkdə çətinlik törədir.

Hamilə qadınlarda isə siqaret daha acınacaqlı fəsadlar törədir. Əgər hamilə qadın siqaret çəkirsə və yaxud siqaret çəkən şəxsin yanında tüstünü passiv şəkildə qəbul edirsə, hormonlara güclü təsir edən zəhərli maddələr onun gələcəkdə dünyaya gətirəcəyi körpənin orqanizminə birbaşa daxil olur və formalaşmaqda olan orqanizmdə bir çox xəstəliklərin yaranmasının başlanğıcı olur. Hamilə qadınların hələ doğulmamış uşaqları ana bətnində zərər çəkir. Cılız, zəif uşaqların doğumu, hətta ölü doğuşların ehtimalı artır. Siqaret çəkən qadın uşağı əmizdirən zaman nikotin ana südü vasitəsilə körpəyə keçir.

### Tütünün qocalara təsiri...

Siqaret yaşlı insanlara da mənfi təsir göstərir. Onların bədənlərində olan hüceyrələrin zəifləməsini sürətləndirir, yuxusuzluq, taqətsizlik və digər problemlərin yaranmasına şərait yaradır. Siqaret çəkən yaşlı adamlar adətən əsəbi olur, hər şeyə emosional yanaşırlar. Dərideki qırışların çoxalması, dişlərin tez tökülməsi kimi hallar daha tez baş verir.

### Siqareti tərgidə bilməmək bir bəhanədir

Tütündən istifadə edənlər gərgin və əsəbi olduqları zaman siqaret çəkməklə stresdən çıxdıqlarını güman edirlər. Lakin bu, heç də belə deyil. Sadəcə olaraq bu, insanlara psixoloji təsir edir və insanlarda belə təsəvvür yaradır. Həmin şəxslər düşünmürlər ki, bu yolla bədənlərini zəhərləyirlər.

Siqareti hər bir şəxs tərgidə bilər. Bunun üçün heç bir vasitədən istifadə etmək lazım deyil. İnsan iradəsi bu pis vərdişi davam etməmək üçün ən yaxşı vasitədir. Əgər siqaret çəkən şəxs özündə iradə, özünəinam hiss edərsə, bunun öhdəsindən asanlıqla gələ bilər və siqaretdən birdəfəlik yaxa qurtarar.

### Siqaretə yox deyək!

Hazırda dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da tütünlə mübarizə ciddi şəkildə aparılır. Belə ki, KİV-də, radio və televiziyalarda tütün əleyhinə müxtəlif təbliğat kampaniyaları aparılır. Dünya təcrübəsinin göstərdiyi kimi, tütün məmulatlarının qiymətlərinin və vergilərinin artırılması siqaret çəkməyə qarşı kompleks mübarizə siyasətinin ən effektiv komponentlərindən biridir.

**Artıq ötən ilin dekabr ayının 1-də Milli Məclis tərəfindən "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qəbul olunub. Qanuna əsasən, tütün məmulatlarından (siqaret) sulu qəlyan və elektron siqaretdən bu yerlərdə istifadə qadağandır:**

*– təhsil və tərbiyə müəssisələri, onların əraziləri;*

*– səhiyyə, reabilitasiya və sanatoriya-kurort müəssisələri, onların əraziləri (açıq məkanlar və xüsusi ayrılmış qapalı yerlər istisna olmaqla. Belə yerlərə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunacaq);*

*– mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilatlar, iş yerləri (açıq məkanlar və xüsusi ayrılmış qapalı yerlər istisna olmaqla);*

*– idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallar;*

*– restoranlar, kafelər, barlar daxil olmaqla, ictimai iaşə obyektləri (açıq məkanlar və xüsusi ayrılmış qapalı yerlər istisna olmaqla)*

*– ticarət obyektləri;*

*– məişət obyektləri;*

*– sosial xidmət müəssisələri;*

*– yerləşdirmə vasitələri (tütün çəkənlər üçün mehmanxanalarda otaqlar və xüsusi yerlər ayrılmasına icazə verilir);*

*– teatr və kinoteatrlar, sirk binaları, sərgi və nümayiş salonları, oxu zalları, kitabxanalar, muzeylər, habelə digər mədəniyyət obyektləri;*

*– uşaq meydançaları;*

*– yerüstü qapalı və yeraltı piyada keçidləri;*

*– müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobuslar, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələri və taksi minik avtomobilləri;*

*– metropoliten stansiyalarının vestibülləri, keçidləri, platformaları və vaqonları;*

*– hava nəqliyyatı vasitələri, dəmir yolu qatarları (qatarın xüsusi ayrılmış yerləri istisna olmaqla). Su nəqliyyatı vasitələri (xüsusi ayrılmış yerlər istisna olmaqla);*

*– tütün çəkmək üçün xüsusi ayrılmış yerlər istisna olmaqla, hava və dəniz (çay) limanlarının inzibati binaları, dəmir yolu vağzalları, avtovağzallar (avtostansiyalarda) və avtobusların dayanacaq məntəqələri;*

*– liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerləri;*

*– taksofonlar;*

*– yanacaqdoldurma məntəqələri, o cümlədən tezalışan maddələrin saxlandığı bina və müəssisələr.*

Qeyd edək ki, mövcud qanuna görə, qadağan olunmuş yerlərdə siqaret çəkilməsinə görə cərimə də tətbiq ediləcək. Cərimələrin tətbiqi qaydaları yeni hazırlanmış İnzibati Xətalar Məcəlləsində öz əksini tapıb. Yeni hazırlanmış məcəlləyə əsasən, qanunla qadağan edilmiş yerlərdə siqaret çəkən şəxslər 30 manat məbləğində cərimə ediləcəklər.

Həmçinin, müəssisələrdə, idarələrdə, təşkilatlarda siqaret çəkmək üçün xüsusi yerlərin ayrılmasının və görünən yerlərdə "siqaret çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə vəzifəli şəxslər 400 manat məbləğində, hüquqi şəxslər 1000 manat məbləğində cərimə edilir.

Əlavə edək ki, bir müddət öncə ölkəmizdə ictimai nəqliyyat vasitələrində siqaretin çəkilməsi ilə bağlı qadağaların pozulmasına görə 50 manat məbləğində cərimə tətbiq edilməsinə başlanılıb.

İnanırıq ki, respublikamızda aparılan təbliğatlar və tətbiq olunan qadağalar sayəsində siqaretə aludə olanlar bu pis vərdişdən yaxa qurtaracaqlar.

Bəli, hamılıqla çalışmalıyıq ki, cansağlığımızı tütünə qurban verməyək. Ən azından ona görə ki, bizdən sonra gələn nəsillər sağlam olsun.

## Allah rəhmət eləsin

16073 saylı hərbi hissənin komandanlığı kapitan Yusif Əsgərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000